**Pərviz İsmayılov**
**AMEA Nəsimi adına Dilçilik İnstitutu,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**
**perviz.ismayilov@gmail.com**

## Antroponimik sistemin xronoloji ardıcıllıqla öyrənilməsi məsələsinə dair

**Açar sözlər**: antroponim, antropoəsas, antropoformant, yazılı abidə, model, modelləşdirmə

**Ключевой слова:** антропоним, антропооснова, антропоформант, письменный памятник, модель, моделирование

**Key words:** anthroponym, anthropostem, anthropoformant, written monument, model, modeling

Tarixi onomastikada həm nəzəri, həm də tətbiqi problemlərin həlli aktualdır. Müasir dövrdə türk dilləri üçün ümumi və ortaq olan vahidlərin toplanması və onların bir toplu kimi araşdırılması son dərəcə vacibdir və bu baxımdan onomastik vahidlər xüsusi əhəmiyyət kəsb edir. Ümumtürk səviyyəsində onomastikaının araşdırılmış və tədqiq edilməmiş məsələlərinin aydınlaşdırılması özü də ayrıca bir problemdir. Təbii ki, tədqiqatların kəmiyyəti onların keyfiyyət göstəricisi deyildir. Keyfiyyətcə qiymətləndirmənin özü müəyyən axtarışlar, araşdırmalar üzrə aparılmalıdır. Ayrı-ayrı türk dillərində onomastik vahidlərin siyahıları, lüğətləri, məlumat kitablarının nəşr olunması mühüm əhəmiyyət kəsb edir. Əgər belə toplular varsa, onların birləşdirilməsi istiqamətində iş görmək zərurəti meydana çıxır. Türk dillərinin ümumi tarixi onomastik mənzərəsi ayrı-ayrı türk dillərinin tarixi onomastikaları üzrə tədqiqatların müqayisəli şəkildə təhlil və araşdırmaları prosesində daha aşkar görünənləri, zənnimizcə, heç bir şübhə doğurmur. Qeyd edilən istiqamətlərdə işlərin aparılması bir çox səbəblərdən çətin və ağırdı. Məsələnin türk dilləri üçün ortaq planda qoyulmasının vacibliyi çətinliyi, işin ağırlığını kölgədə qoyur.

Onomasologiyada özünü göstərən cəhətlərdən biri də adların, nominasiyası prosesinə təsir göstərən amilləri aşkara çıxarmaq, xüsusi adların təşəkkül və formalaşma prinsiplərini aydınlaşdırmaq üçün müxtəlif elm sahələrinə dair bilikləri bir yerə toplamaqdır. Onomastik vahidlərin hər bir qrupunun verdiyi materialın özünəməxsus xüsusiyyətləri vardır. Bəzi onomastik materiallar dil tarixinin, o cümlədən bir sıra başqa sahələrin tarixinin öyrənilməsi üçün daha zəngin faktlar verirsə, başqa

qrup vahidlərdə belə faktlar az olur. Biz belə bir qənaətdəyik ki, dil tarixi, o cümlədən tarixi onomastikanın tədqiqi üçün qədim antroponimlərin və toponimlərin öyrənilməsi, araşdırılması daha vacib və daha əhəmiyyətlidir. Yazıyaqədərki dövrün onomastikası birinci tarixi onomastik qatı təşkil edir. Sonrakı qatlar dilin yazılı abidləri, xüsusən də fundamental yazılı abidələri əsasında müəyyənləşdirilməlidir. Biz bu qata Orxon-Yenisey abidələrinin dilində işlənmiş onomastik vahidləri daxil etməyi məqsədəuyğun sayırıq. Türk yazılı abidələrindən Orxon-Yenisey abidələri ümumtürk abidəsi sayılır. Bundan əlavə ayrı-ayrı dillər qruplarına aid abidələr də az deyildir. Tarixi onomastika üçün həm dil qrupları və ayrı-ayrı dillərə aid abidələrin onomastikası tədqiqat əhəmiyyət daşıyır. Təbii ki, abidələrin yazılma tarixlərinə görə xronoloji qaydada tədqiqi məsələyə ardıcıl yanaşmanı təmin edir. Bu halda müəyyən dövr üçün məqbul sayılan onomastik vahidlərin bir yerə toplanması imkanı qazanılır. 1303-cü ildə yazılması ehtimal edilən «Kodeks Kumanikus», Kitabi-məcmu-e tərcüman türki və əcəmi və möqoli və farsi» (XIII) lüğəti, Əbu Həyyan Əl-Qarnatinin (və ya əl-Əndəlusi) «Kitabul idrak, lisan-ül ətrak (XII), Cəmaləddin Ət-Türkinin «kitabi-bulqat əl muştak fil-luğati əttürk və əl kıfçak» (XV), «Ət-töhfət üz-zəkiyyə, fil-lüğət-it Türkiyyə» (XV), Mahmud Kaşğarinin «Divani-lüğət-it türk», Yusif Balasaqunlunun «Qutadqu Biliq», «Kitabi-Dədə Qorqud» dastanları, «Oğuznamə»lər, uyğur abidəsi «Altun-yaruk» və bir sıra başqa abidələr, həmçinin qazax dilindəki «Alpamış», qırğız dilindəki «Manas» dastanları, «Koroğlu» dastanı və s. bir yerdə türk dillərinin tarixi onomastikası ilə bağlı kifayət qədər böyük bir materialın toplanmasına əsas verəcəkdir. Əldə olan materiallara əsasən deyə bilərik ki, Əzizxan Tanrıverdinin “Qədim türk mənbələrində yaşayan şəxs adları” monoqrafiyası məhz qeyd etdiyimiz planda yazılmış olduqca əhəmiyyətli tədqiqat işidir. Əsərdə Orxon-Yenisey abidələri, "Dədə Qorqud kitabı", "Manas" dastanı, Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri və bir sıra digər qədim türk mənbələrindəki səxs adları tarixi-linqvistik müstəvidə tədqiq edilmişdir [1, s. 19]. Onu da qeyd edək ki, türkologiyada və ayrı-ayrı türk dillərində bu abidələr üzrə irili-xırdalı müxtəlif aspektli tədqiqatlar aparılmışdır. Məsələn, Ç.Hüseynzadənin «Orta əsrlər ərəbdilli yazılı abidələrdə türk mənşəli antroponimlər» monoqrafiyasında, əsasən, türk mənşəli antroponimlərin müəyyən dövrə aid olanları tədqiq və təqdim olunmuşdur [2, s.18].

Ə.Tanrıverdi Orxon-Yenisey abidələrindəki antroponimləri quruluşuna görə üç yerə bölür: 1) sadə quruluşlu antroponimlər: Bars, Buğa, Böri, Kara və s.; 2) düzəltmə quruluşlu antroponimlər: Edçu, Elçi,

Salçı, İnançu, Kutluğ, Toğluk, Bökli, Təkəş, Bilgə, Kapağan, Kıyağan və s.; 3) mürəkkəb quruluşlu antroponimlər: Altuğa, Elbilgə, İltəris, və s. Müəllif mürəkkəb antroponimlərdən bəhs edərkən Orxon-Yenisey abidələrindəki mürəkkəb antroponimlərin daha çox model təşkil etdiyini qeyd edir və modelləri tərkibdəki sözlərin miqdarı üzrə dörd sinfə bölür: 1) tərkibində iki söz olan model: Aza Tutuk, Alp Urunu, Apa Tarkan, Buğak Tutuk, Kutluğ çor və s.; 2) üç sözdən ibarət olanlar: Boyla Buğa Tarkan, Ögə Bert Tutuk, Öz Alp Tutuk və s.; 3) dörd sözdən ibarət olanlar: Ög Bas İn Alp, İnançu Apa Yargan Tarkan və s.; 4) beş sözdən ibarət olanlar: Tüz Bay Küç Bars Kutluğ [1, s.60].

Araşdırmalar göstərir ki, Orxon-Yenisey abidələrində iki sözdən ibarət olan antroponimik modellər üstünlük təşkil edir. Ə.Tanrıverdi göstərir ki, Orxon-Yenisey abidələrindəki antroponimlər arasında birhecalı antroponimləri – Bay Apa, Bars Bəg, Küç Bars, Küç Kül, ikihecalı antroponimləri – Arslan, Altun, Bogü, Sabık Basar, Yamtar, Kutluğ və s., üçhecalı antroponimləri – Bağatur, İsbara, İlbigə, Kapağan, ayırmaq olar. Bunların arasında bir və ikihecalı appelyativlər əsasında formalaşanlar çoxluq təşkil edir. Hətta çoxsözlü antroponimik modellərdəki vahidlərin hamısının azhecalı olmasına təsadüf edilir. Məsələn, "Tüz Bay Küç Bars Kutluk" antroponimik modelindəki beş sözdən dördü birhecalıdır [1, s.61].

Linqvistikada modelləşdirmə müəyyən kriteriyalar əsasında vahidlərin forma və ya məzmun planına görə eyni çərçivə daxilinə salınması nəzərdə tutulur. Qurulan qəliblər model adlandırılır. Ə.Tanrıverdi modelləşdirmə üçün mürəkkəb antroponimləri vahid kimi götürmüş və onları tərkibdəki sözlərin sayı əsasında qruplaşdırmış, müvafiq modelləri tərtib etmişdir. Belə modellərdə beş sözdən ibarət olan adlar qrupu da aşkara çıxır ki, bu, adlandırmanın qənaət prinsiplərini bir qədər pozur. Belə hesab etmək olar və ya belə bir mülahizə irəli sürmək olar ki, dilin qədim qatlarına getdikcə antroponimlərin sadə variantlarda olması ağlabatandır. Yəni insana ad verərkən onun tələffüzünün ahəngdarlığı, eləcə də qısalığı aparıcı olmalıdır. Təsadüfi deyil ki, iki sözdən ibarət olan mürəkkəb antroponimlər Orxon-Yenisey abidələrində çoxluğu ilə seçilir. Beş sözdən ibarət olan modelə aid Ə.Tanrıverdi yalnız bir nümunə vermişdir: Tuz Bay Küç Bars Külüğ [1, s.61]. Bununla yanaşı əsərdə Ak baş Atık İnal Ögə antroponimi də təhlilə cəlb edilmişdir. Həmin təhlildə göstərilir ki, Ak baş Atık İnal Ögə adındakı sözlər ardıcıl olaraq aşağıdakı mənalara malikdir: ak - ağ, baş - baş, inal - inanılmış, etibarlı, ögə - müdrik, ağıllı. Bu ardıcıllıqda Atık sözünün

müasir dildə açılışı yoxdur. Ə.Tanrıverdi, Ə.Rəcəbov və Y.Məmmədova istinadla qeyd edir ki, söz "at" kökü və "-ık" şəkilçisi əsasında formalaşmışdır. "Ak baş Atık" mürəkkəb adı "ağ baş atı olan" kimi izahlanır. Ə.Tanrıverdi "atık" sözünün appelyativ olaraq "tanınmayan, bilinməyən" anlamlı "aduk" və "ayı" anlamlı "adığ" sözlərinin ola biləcəyi ehtimalını irəli sürür, "ayı" dır. Xüsusi adların fərqli müxtəlifliyi onların öyrənilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Bir halda yer, ərazi, yaşayış məntəqəsi xüsusi ad alırsa, başqa halda xüsusi adın arxasında real subyekt durur. Təbii ki, insanı coğrafi obyekti, heyvani, kosmik obyekti adlandırma fərqli hadisələrdi. Ona görə də, xüsusi adların öyrənilməsində həm oxşar, həm spesifik məsələlər üzə çıxır.Antroponimlərin modelləşdirilməsi məsələsini fərqli şəkildə qoymaq olar. Əgər antroponim çox sözdən düzəlirsə, bu halda modelləşdirmənin sözlərin miqdarına əsasən aparılması mümkündür. Lakin belə modelləşdirmə adın tərkibindəki hər bir sözün semantik xüsusiyyətlərini nəzərə almır. Antroponimlərin əksəriyyəti bir sözdən ibarətdir və iki və daha artıq sözün işlənməsi, şübhəsiz ki, tarixən sonrakı dövrlərə aid ola bilər. Ona görə də ilk növbədə bir sözdən ibarət antroponimlərin modelləşdirilməsi, daha sonra isə iki sözdən ibarət antroponimlərin modelləşdirilməsi məsələsini qoymaq daha məqsədəuyğundur. Xüsusi adların düzəlməsi məsələsini təhlil edərkən, əsaslar və formantlardan danışmaq lazım gəlir. Çünki əsasın tərkibinə daxil olan prefiks, kök və suffikslər, bir qayda olaraq, onomastikaya qədərki formanın komponentləridir. Onlar xüsusi adlar üçün baza rolunu oynamışdır. Sonuncunun tərkibinə hazır əsaslar (enonimlər) axırda daxil olmuşdur [3, s.22]. Antroponimlərin struktur-semantik tədqiqatlarında "antropoəsas" və "antropoformant" anlayışlarından istifadə olunur. «Antroponimik əsas (antropoəsas) şəkilçisi və antropoformantı atıldıqda antroponimin qalan hissəsidir. Antroponimik formant (antropoformant, formant antroponima) - antroponimin affiksal elementi, həmçinin antroponimik suffiksdir» [4, s. 35].

Ç.Hüseynzadə göstərir ki, xüsusi adların əsaslarının öyrənilməsi tarixi antroponimiyaya həsr olunmuş tədqiqat işlərinin başlıca məsələsidir. Çünki bunsuz hər hansı təsnifin və etimologiyanın aparılması mümkün deyildir. Dilçilik ədəbiyyatında topo- və antropo əsasların öyrənilməsinə müxtəlif yanaşma və münasibətlərin hamısı buradan irəli gəlir. Xüsusi adların əsasını morfoloji, struktur, leksik-semantik, semasioloji, substitusional mövqedən şərh edərkən eyni bir əsasın linqvistik və ekstralinqvistik səciyyəsini aşkara çıxarmaq mümkündür. Bu yolla əldə edilmiş nəticələr çox zaman ziddiyyətli olur və onomastika ilə məşğul olanlar arasında mübahisələr doğurur. Bununla belə, xüsusi adların əsaslarını öyrənərkən təd-

qiqatçıların əksəriyyəti həm topoəsasın, həm də antropoəsasın seçilməsinin təsadüfi olmaması haqqında vahid fikrə gəlirlər" (Ç.Hüseynzadə).

Adlar dilin lüğət tərkibindəki sözlər əsasında formalaşsa da, onların şəxslərə verilməsi və ya fərdin bu və ya digər adla nominasiyası təsadüfi səciyyə daşımır. Mövcud adların semantik təhlili, sözlərin mənalarına görə tematik qruplaşdırılması təsdiq edir ki, antroponimlər müəyyən seçim əsasında götürülmüşdür və bu seçim də insanın real gerçəkliyə, onun hadisələrinə, əşya və predmetlərinə münasibətdən asılı olmuşdur. Yəni antroponimlər təsadüfi sözlər toplusu deyildir. Elə sözlər vardır ki, onların antroponim olma ehtimalı yüksəkdir, elə ümumi sözlər də vardır ki, onlardan antroponim üçün ümumiyyətlə istifadə olunmur. Antroponimləşməyə meyillilik, hər şeydən əvvəl, komponentlərin semantikasından doğur.

Xüsusi adların öyrənilməsi, ilk növbədə, şəxs adlarının qeydə alınması, təsviri, yaranma xüsusiyyətlərinin, prinsiplərinin araşdırılması, onların mənşəyinin müəyyənləşdirilməsi, struktur tiplərinin təyin edilməsi ilə başlanmışdır. Bu tip tədqiqatlarla antroponimikanın əsası qoyulmuşdur. Sonralar başqa bir qrupa məxsus xüsusi adlarla bağlı işlər üzə çıxmışdır. Coğrafi obyektlərin, daha çox insan yaşayış məskənlərinin adlarının öyrənilməsi toponimikanın təşəkkülü və inkişafına təkan vermişdir. Məhz bunun nəticəsidir ki, onomastika uzun müddət antroponimika və toponimika zəminində inkişaf etmişdir.

Fikrimizcə, xüsusi adlar sistemində antroponimikanın daha qədim olması ehtimalını irəli sürmək olar. Antroponim linqvokulturoloji təhlil obyektidir. Deskriptiv -analitik təsvir metodu ilə həm antroponimlərin funksiyalarını, həm də onların konkret mədəniyyət kontekstində reallaşma xüsusiyyətlərinin araşdırmaq mümkündür.

İnsan adı onun mövcudluğunun ayrılmaz hissəsidir. Antroponim cəmiyyət üzvünü ona xas olan xüsusiyyət və əlamətlər əsasında təqdim edə bilmir. Çünki insana ad uşaqlıqdan verilir. Bu dövrdə adın semantikasındakı əlamətlər müəyyən niyyət, arzu və s. nəzərdə tutulur. Antroponim denotatı olan, digər siqnifikatı isə olmayan vahiddir. Ad istifadə zamanı semantika və konnotasiya ilə zənginləşir

Türklərdə şəxsə totem adlarının verilməsi geniş yayılmış ənənə olmuşdur. Qurd qədim türk totemlərindən biridir və bu sözdən advermədə çox istifadə edilmişdir. Məsələn, Buri, Buriboy (özbəklərdə), Bori, Boribay, (qazaxlarda), Bure (başqırdlarda), Bori, Qurt (türkmənlərdə), Byorü (Qaraçay-balkarlarda), Çon (monqol-qalmıqlarda) şəxs adlarıdır [Bax: 5, s.20].

Təbii ki, "qurd" sözü ilə bağlı adlar bir qrup təşkil edir. Hər bir dildə elə ümumi isimlər vardır ki, onlar antroponimik sistemdə məhsuldarlığı ilə seçilirlər. Antroponimin əsasında duran appelyativlərin cinsə görə bölgüsü də müşahidə olunur. Kişi adlarında və qadın adlarında çoxişlənən ümumi isimlər vardır. Bu cəhət xüsusi adların tərkibindəki ümumi ismin semantikasının antroponimin seçilməsində əhəmiyyətli olduğunu təsdiq edir. Hər bir antroponim yalnız kök sözdən ibarət olmur. Bu baxımdan antropoəsas və və ona artırılan antropoformant fərqləndirilmişdir. Antroponimin antropoəsas və antropoformantdan təşkil olunması modelləşdirmənin bu iki vahidin iştirakı ilə qurmağa əsas verir. Eyni zamanda belə bölgü dilin antroponim sisteminə daxil olan bütün antropoformant və antropoəsasları da ayırmaq imkanı yaradır. Nəticədə dilin ilkin adlar sisteminin tərkibindəki antropoformant və antropoəsasların toplanıb sistemləşdirilməsi, eləcə də hər iki alt sistemin təkamülünün öyrənilməsi mümkünləşir. Qədim yazılı abidələrdəki antroponimlərin toplanması onların antropoəsas və antropoformant üzrə modellərinin qurulması qeyd edilən cəhətdən aktualdır.

«Hind-Avropa dillərinin çoxunda adlar leksik bircinsli əsaslardan oxşar modellər üzrə yaranmışdır. Bu onların mənşəyinin ümumiliyini təsdiqləməklə yanaşı, həmin dillərin hər birinə xas olan ənənənin varlığının və adların həmin ənənə üzrə yaranmasının da göstəricisidir. Əgər adların repertuarı zaman keçdikdə dəyişirsə, onda leksik məna müəyyən çərçivədə qalır və bu zaman appelyativlərin sinonimlərinin işlək dairəsi genişlənir» [3, s. 25-26].

Adların qədim yazılı abidələrdən toplanması, onların semantikasının həm appelyativ əsas üzrə açılması, həm də adı daşıyan şəxsin müvafiq abidədəki keyfiyyətlərinin öyrənilməsi onların adın sonradan başqa şəxslərə verilməsinin təhlilə cəlb olunması olduqca aktual məsələdir. Ona görə də, deyək ki, Orxon-Yenisey abidələrində işlənən adın sonrakı dövrlərə dair hansı abidələrdə qeydə alınması əhəmiyyətlidir. Bununla yanaşı çoxkomponentli adlardakı komponentlərin mənalarını açmaq və bu mənaların bütöv konstruksiyada hansı ümumi mənanı doğurmasını da araşdırmaq vacibdir. Daha bir maraqlı cəhət isə bu və ya digər antroponimin müvafiq dil daşıyıcılarının antroponimik sistemində hansı dövrədək yaşamasını, izlərini hansı müasir antroponimlərdə saxlamasını öyrənmək tədqiqatın gələcək istiqamətlərini təyin etmək üçün də əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT:


1. Tanrıverdi Ə. Qədim türk mənbələrində yaşayan şəxs adları. Bakı, Nurlan, 2009, 440 s.
2. Hüseynzadə Ç. Orta əsrlər ərəbdilli yazılı abidələrdə türk mənşəli antroponimlər. Bakı, "Elm və Təhsil" 2011, 152s.
3. Суперанская А.В. Теория и методика ономастических исследований Москва, Наука, 1986.
4. Подольская Н.В. Словарь русской ономастической терминологии. М.,Наука, 1978, 192 с.
5. Adilov M. Bəzi advermə adətləri haqqında//Dil və cəmiyyət. Bakı, ADU nəşri, 1985, s. 15-22


**Парвиз Исмайлов**

**К вопросу изучения антропонимической системы в хронологической последовательности**

**Резюме**

В статье рассматриваются вопросы сбора архаичных единиц, входящих в антропонимическую систему из различных источников и их изучения в сравнительном аспекте. Анализ и изыскания показывают, что существуют исследования, посвященные моделированию антропонимов согласно различным критериям. Среди низ моделирование по участию антропооснов и антропоформантов и применение его в изучении архаичной антропонимической системы чрезвычайно значимо в исследовании эволюции антропонимов.

**Parviz Ismailov**

**On the question of investigation of anthroponymic system in chronological sequence**

**Summary**

In the article had been considered the questions of collection of archaic units forming the anthroponymic system from different sources and their investigation in comparative aspect. The analysis and research show that there are investigations dedicated to the modeling of anthroponyms in accordance with different criteria. Among them the modeling according to the participation of anthropostems and anthropoformant and its usage in the research of ancient anthroponymic system is very significant in the investigation of anthroponyms' evolution.